# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

Bakı şəhəri № 1/16 11 sentyabr 2012-ci il

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2012-ci il 04 sentyabr tarixli fərmanı ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında" Əsasnamədən irəli gələn tapşırıqların icrası ilə əlaqədar Auditorlar Palatası tərəfindən tədbirlərin həyata keçirilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)"nın 7.2.4.2-ci yarımbəndinə əsasən hazırlanmış "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında" Əsasnamədə nəzərdə tutulmuş idarələrarası elektron sənəd dövriyyəsi sisteminin (bundan sonra - sistem) yaradılması, idarə olunması və bu sistemdən istifadə olunması qaydalarına riayət edilməsi üzrə Auditorlar Palatasında zəruri tədbirlərin görülməsini təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının iştirakı ilə idarələrarası elektron sənəd dövriyyəsi çərçivəsində elektron sənəd mübadiləsini bilavasitə həyata keçirəcək məsul şəxslər Palata Aparatının rəhbəri Q.Bayramov və İnformasiya texnologiyaları üzrə mütəxəssis R.Ələkbərov təyin edilsinlər;
2. Aparatının rəhbəri Q.Bayramova və Maliyyə və təssərüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, elektron sənəd dövriyyəsi sistemində iştirakçı qismində müəyyən olunmuş Auditorlar Palatasında müvafiq texniki vasitələrə (server, kommunikasiya avadanlığı, informasiyanın mühafizə vasitələri və avtomatlaşdırılmış iş yerləri) olan tələbatın iki həftə müddətində müəyyən olunmasını təmin etsinlər;

3. Aparatının rəhbəri Q.Bayramova və Maliyyə və təssərüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, bir ay ərzində qovşağın texniki vasitələrinin yerləşdirilməsi üçün xüsusi otaq ayrılması və həmin otağa dair rejim tədbirlərinin təşkil edilməsini həyata keçirsinlər;
4. Aparatının rəhbəri Q.Bayramova və İnformasiya texnologiyaları üzrə mütəxəssis R.Ələkbərova tapşırılsın ki, mühafizə olunan rabitə kanalı ilə göndərilənədək informasiyanın icazəsiz daxil olmalardan və təhrifetmələrdən mühafizəsini təmin etsinlər;
5. Palatanın struktur bölmələrinin rəhbərlərinə (M.Abbasov, M.Hacıyev, S.Gülməmmədov, V.Rəhimov) tapşırılsın ki, Əsasnamədən irəli gələn vəzifələrin icrasını vaxtında təmin etsinlər;
6. Sərəncamın icrasına nəzarət Palata sədrinin müavini F.İsmayılova həvalə edilsin.

**PALATANIN SƏDRİ V.NOVRUZOV**